> ***Bu islahatlar bütün sahələri əhatə edəcək. Buna ehtiyac var. Hətta inkişaf etmiş ölkələrdə daim islahatlar aparılır. İslahatlar yenilik, yeni yanaşma, mövcud problemlərin həlli deməkdir.***
>
> **İlham ƏLİYEV**
> **Azərbaycan Respublikasının Prezidenti**

# Parlamentin buraxılması təşəbbüsü qanunverici orqanın fəaliyyətinin səmərəliliyinin artırılmasına yönəlib

***Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən köklü islahatlar həm idarəetmədə, həm də digər sahələrdə yeni modelə keçidin əsasını qoyub. Bu islahatların anonsu 2018 - ci ildə keçirilmiş prezident seçkilərində qələbə qazanmış Prezident İlham Əliyevin həmin il aprelin 18- də Milli Məclisdə andiçmə mərasimindəki nitqində verilmişdi. Dövlətimizin başçısı demişdi ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik. Ölkə rəhbəri bu islahatlar nəticəsində vətəndaşlarımızın yaşayış səviyyəsinin daha da yaxşılaşacağına əminliyini ifadə etmişdi.***

Andiçmənin ertəsi günü "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin fərmanı bu sahədə atılan ilk addım oldu. Bundan sonra həyata keçirilən islahatlar bir-birini əvəz etdi. İslahatların əsas qayəsini ölkə iqtisadiyyatının inkişaf etdirilməsi, qüdrətinin artırılması, bunların zəminində sosial inkişafın daha yüksək templə həyata keçirilməsi, insanların rifahının daha da yaxşılaşdırılması təşkil edir.

Cari ildə Prezident İlham Əliyevin ölkədə həyata keçirdiyi islahatlar daha dinamik xarakter aldı. İndiyədək bir çox əhəmiyyətli islahatlar həyata keçirilib və bu iş hazırda uğurla davam etdirilir. 2019-cu ildə Prezident İlham Əliyevin təşəbbüsü ilə və imzaladığı sərəncamlarla ictimaiyyətin məmnunluğuna səbəb olan reallaşdırılmış əhəmiyyətli sosial paketlər xüsusi qeyd edilməlidir. Struktur və kadr islahatları böyük rəğbətlə qarşılanıb. Azərbaycan cəmiyyətində müəyyən dövrlər ərzində geniş müzakirə mövzusu olan bu dəyişikliklər insanların sabaha olan inamını daha daha da artırıb və "Prezident-xalq" vəhdətini sıx tellərlə bağlayıb.

Hazırda uğurla həyata keçirilən islahatlar konsepsiyası ölkəmizin inkişafına böyük dinamizm qazandırmaqdadır. Nazirlər Kabinetində, məhkəmə -hüquq sistemində və regional idarəetmə orqanlarında struktur və kadr islahatlarının aparılması öz müsbət nəticələrini göstərməkdədir. Bütün bunlardan sonra qanunverici hakimiyyətdə də islahatların aparılması zərurəti yaranmışdı. Təbii ki, yeniləşən Azərbaycanda yeni parlamentin olması vacibdir. Bu baxımdan, Yeni Azərbaycan Partiyası Siyasi Şurasının noyabrın 28- də keçirilən toplantısında Milli Məclisin buraxılması təşəbbüsü ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı. YAP-ın Milli Məclisdə çoxluq təşkil edən üzvlərinin yekdil fikrinə əsasən, parlament ölkədə həyata keçirilən islahatlardan kənarda qalmamalıdır. Bu məqsədlə, parlamentin buraxılması və növbədənkənar seçkilərin keçirilməsi ilə bağlı Milli Məclisə müraciət etdilər.

Məlum olduğu kimi, 2016-cı ildə keçirilmiş referendum nəticəsində Azərbaycan Konstitusiyasında edilən dəyişikliklərdə Azərbaycan Respublikası Prezidentinin parlamenti müəyyən şərtlər daxilində buraxmaq səlahiyyətləri təsbit edilib. Konstitusiyanın 98.[1]-ci maddəsində Milli Məclisin buraxılması proseduru ilə bağlı müddəa öz əksini tapıb. Həmin maddədə qeyd edilir: "Azərbaycan Respublikası Milli Məclisin eyni çağırışı 1 il ərzində iki dəfə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə etimadsızlıq göstərdikdə və ya Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Respublikası Ali Məhkəməsinin və Azərbaycan Respublikası Mərkəzi Bankı İdarə Heyətinin kollegial fəaliyyəti üçün zəruri olan sayda üzvlüyə namizədləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən iki dəfə təqdim edildikdən sonra, bu Daxili Nizamnamənin 20-ci maddəsinin birinci hissəsində müəyyən edilmiş müddətdə təyin etmədikdə, habelə Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində, 96-cı maddəsinin II, III, IV və V hissələrində, 97-ci maddəsində göstərilən vəzifələrini aradan qaldırıla bilməyən səbəblər üzündən icra etmədikdə, Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikasının Milli Məclisini buraxır".



Hüquqşünasların fikrincə, hakim partiyanın üzvü olan 70 deputat mandatından imtina etdiyi halda, yeni seçkilər təyin edilə bilər. Çünki Konstitusiyaya görə, Milli Məclisin iclası 83 deputat iştirak etdikdə səlahiyyətlidir. Bütün bunlar Milli Məclisin dekabrın 2-də keçirilən iclasında da geniş müzakirə olundu və qeyd edildi ki, parlamentin yenilənməsi ölkəmizin inkişafına təkan verəcək.

Müzakirələrdən sonra Milli Məclisə növbədənkənar seçkilərin təyin olunması haqqında Azərbaycan Prezidentinə müraciət edilməsi barədəki qərarda da ölkədə davamlı olaraq həyata keçirilən islahatların rəğbətlə qarşılandığı vurğulanıb. Qərarda qeyd edilir: "Azərbaycan Respublikası Milli Məclisi deputatlarının mütləq əksəriyyətinin parlament fəaliyyətinin həyata keçirilməsinin mümkünsüzlüyü barədə qəti mövqelərinin mövcudluğunun parlamentin öz fəaliyyətini davam etdirməsinin qarşısını aldığı nəzərə alınaraq, deputatların ölkə vətəndaşları tərəfindən yenidən seçilməsi zəruridir. Öz səlahiyyətlərini artıq icra edə bilməməsi şəraitində Azərbaycan Respublikasının Milli Məclisi hesab edir ki, Azərbaycan parlamenti ölkədə aparılan genişmiqyaslı institusional və kadr islahatlarından geri qalmamalı, fəaliyyətini yenidən qurmalıdır. Buna görə də Azərbaycan Respublikası Milli Məclisinin Azərbaycan Respublikası Konstitusiyasının 94-cü və 95-ci maddələrində nəzərdə tutulmuş səlahiyyətlərinin yuxarıda qeyd olunan müasir çağırışlara uyğun həyata keçirilməsi və xalqın etimadının yenidən qazanılması üçün Milli Məclis buraxılmalı və parlamentə növbədənkənar seçkilər keçirilməlidir".

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin III hissəsini rəhbər tutaraq qərara alıb: "Azərbaycan Respublikası Konstitusiyasının 98.[1]-ci maddəsinə əsasən Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və növbədənkənar seçkilərin təyin edilməsi barədə Azərbaycan Respublikasının Prezidentinə müraciət edilsin".

Milli Məclisin qərarı üzrə yekun qərar qəbul etməzdən əvvəl, hazırkı şərtlərdə parlamentin buraxılmasının Azərbaycan Respublikası Konstitusiyasının 98.[1]-ci maddəsinə uyğun olub-olmayacağı barədə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin mövqeyinin öyrənilməsi zərurəti yaranmışdır. Mövcud qanunçuluğa əsasən, Azərbaycan Respublikasının Prezidenti "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Milli Məclisin müraciətində göstərilmiş parlamentin buraxılması məsələsinin Konstitusiyaya uyğunluğu ilə bağlı dekabrın 2-də Konstitusiya Məhkəməsinə sorğu göndərib.

Konstitusiya Məhkəməsinin Palatasının dekabrın 2-də keçirilən növbəti iclasında "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinə müraciət edilməsi barədə" qərarı əsasında, Milli Məclisin buraxılmasının Azərbaycan Respublikası Konstitusiyasına uyğunluğu barəsində Prezident İlham Əliyevin sorğusuna baxılaraq, plenumun icraatına qəbul edilməsi haqqında qərardad çıxarılıb.

Sorğuya mahiyyəti üzrə, tərəflərin iştirakı ilə Konstitusiya Məhkəməsi Plenumunun bu gün – dekabrın 4-nə təyin edilmiş iclasında baxılacaq.

Həyata keçirilən islahatlar Milli Məclisin yenilənməsində, fəaliyyətinin təkmilləşdirilməsində və səmərəliliyinin artırılmasında böyük rol oynayacaq.

*Əliqismət BƏDƏLOV,*
*"Xalq qəzeti"*